BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№2 Humanitar elmlər seriyası 2015

UOT94(479.24)

# XXI ƏSRDƏ ETNİK MÜNAQİŞƏLƏR CƏNUBİ QAFQAZIN REGİONAL TƏHLÜKƏSİZLİK MÜHİTİNƏ TƏHDİD KİMİ

**E.M.CƏMİLLİ**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
*Elnur-azeri@hotmail.com*

*SSRİ-nin dağılma prosesi etnik münaqişələrin şiddətlənməsi ilə bir-birinə paralel getmiş, həm muxtar subyektlər müstəvisində, həm də muxtar subyektlərin olmadığı ərazilərdə etnik zəmində qarşıdurmalar baş vermişdir. Etnik münaqişələr ilə ən zəngin region isə Cənubi Qafqaz olmuşdur. Belə ki, SSRİ-nin dağılma mərhələsində Cənubi Qafqazda "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi", "Osetiya münaqişəsi" və "Abxaziya münaqişəsi" kimi problemlər ortaya çıxmışdır. Hər üç problem region və dünya üçün aktuallığını qorumaqdadır. Məqalədə etnik münaqişələr Cənubi Qafqazın regional təhlükəsizlik mühitinə təhdid kimi nəzərdən keçirilmiş, XXI əsrdə münaqişə tərəfləri arasında ziddiyyətlərin kəskinləşməsinə səbəb olan hadisələr və onların həlli istiqamətində atılmış addımlar təhlil edilmişdir.*

**Açar sözlər:** etnik münaqişə, münaqişə tərəfləri, Cənubi Qafqaz, müharibə

Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ-nin) dağılma prosesində onun müxtəlif ərazilərində etnik münaqişələr də başlamışdır. Etnik münaqişələr ilə "ən zəngin" region isə Cənubi Qafqaz olmuşdur. Cənubi Qafqazda əsasən Sovet dövründə mövcud olan muxtar subyektlər etnik gərginliklərin əsas ocağı olmuşdur. Bunlar içərisində Azərbaycan daxilində formalaşdırılmış Dağlıq Qarabağ Muxtar Vilayəti, Gürcüstan daxilində formalaşdırılmış Abxaziya Muxtar Respublikası və Cənubi Osetiya Muxtar Vilayəti xüsusilə seçilmişdir. Beləcə, SSRİ-nin dağılma mərhələsində Cənubi Qafqazda "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi", "Osetiya münaqişəsi" və "Abxaziya münaqişəsi" kimi problemlər ortaya çıxmışdır. Hər üç problem region və dünya üçün aktuallığını qorumaqdadır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Ermənistanın Azərbaycana ərazi iddiaları nəticəsində yaranmış problemdir. Problemin kökündə Azərbaycanın tarixi torpaqlarında ermənilərin məskunlaşdırılması yatır.

2001-ci ilin başından etibarən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi çərçivəsində danışıqlar prosesi sürətlənmişdir. 2001-ci ilin yanvarında Azərbaycan və Ermənistanın Avropa Şurasına üzvlüyə qəbulu vaxtı

Strasburqda və sonra Parisdə, orada əldə olunan razılıq nəticəsində isə 4-5 mart 2001-ci il tarixlərində yenidən Parisdə Fransa prezidenti Jak Şirakın vasitəçiliyi ilə görüş və həmin ilin aprelində isə Ki-Vest danışıqları keçirilmişdir. 14 avqust 2002-ci il tarixində növbəti dəfə Azərbaycan və Ermənistan prezidentlərinin təkbətək görüşü baş tutmuşdur. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda növbəti Heydər Əliyev və Robert Koçaryanın təkbətək görüşündən öncə Azərbaycan və Ermənistanın müdafiə nazirləri Səfər Əbiyev və Serj Sarkisyan görüşə hazırlıq məsələlərini bir daha nəzərdən keçirmişdilər. Sədərək görüşündə iki ölkənin Xarici İşlər nazirləri Vilayət Quliyev və Vardan Oskanyan, habelə prezidentlərin şəxsi nümayəndələri Araz Əzimov və Tatul Marqaryan da iştirak etmiş, ancaq sadəcə iki prezident arasında keçirilən üzbəüz görüş 4 saatdan artıq çəkmişdi. Danışıqların bu qədər uzun çəkməsi müzakirələrin əhatəli və gərgin keçməsinin göstəricisi kimi izah olunmuşdu.

Növbəti mərhələdə Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) qərarı xüsusi diqqət çəkmişdir. Belə ki, 2005-ci ilin qış sessiyasında mövzunun AŞ PA-da müzakirəsi nəticəsində yanvarın 25-də "ATƏT-in Minsk konfransının məşğul olduğu Dağlıq Qarabağ münaqişəsi" adlı 1416 saylı qətnamə qəbul edilmişdir (3). Bu qətnamədə, ilk dəfə birbaşa olaraq Ermənistanın işğalçı olduğu açıq şəkildə ortaya qoyulmuşdur (11). Bu, Azərbaycan diplomatiyasının qazandığı növbəti qələbə olmuşdur.

Sonrakı illərdə isə ABŞ Dövlət Departamentinin sənədlərində Ermənistanın işğalçılığı qeyd olunmuşdur. Belə ki, ABŞ Dövlət Departamentinin 2006-cı ildə insan hüquqlarının vəziyyəti ilə bağlı yayınladığı xüsusi hesabatında Qarabağ problemi ilə bağlı hissədə Ermənistanın Azərbaycan ərazilərini işğal altında saxladığına dair ifadələrə yer verilmişdir (13). Sənədin ilk variantında Qarabağ münaqişəsindən bəhs edərkən yazılan "Ermənistan Dağlıq Qarabağ və Azərbaycanın yeddi rayonunu işğal edib" ifadəsi Ermənistanın və erməni lobbisinin etirazlarından sonra "Erməni hərbi qüvvələri Dağlıq Qarabağa bitişik Azərbaycan ərazisinin böyük hissəsini işğalda saxlayır" şəklində dəyişdirildi. Azərbaycanın Xarici İşlər Nazirliyi bununla bağlı aprelin 22-də bəyanat yayaraq, aprelin 23-24-də ikitərəfli təhlükəsizlik məsləhətləşmələri üçün Azərbaycan nümayəndə heyətinin Vaşinqtona səfərinin təxirə salındığını bildirmişdi. ABŞ Xarici İşlər Nazirliyi aprelin 26-da hesabatın müvafiq hissəsində yenidən dəyişiklik edərək əvvəlki vəziyyəti bərpa etmiş, beləcə Azərbaycan-ABŞ münasibətlərindəki qısamüddətli gərginlik də ortadan qaldırılmışdı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı növbəti mərhələdə xüsusilə Madrid prinsipləri, yenilənmiş Madrid prinsipləri, Türkiyə ilə Ermənistan arasındakı protokollar prosesi, 2008-ci ilin avqust hadisələri, atəşkəsin pozulması hallarının artması, Xocalı aeroportunun işğalçı Ermənistan tərəfindən istifadəyə verilməsinə dair təşəbbüslər, Mübariz İbrahimovun xüsusi qəhrəmanlığı, Ermənistan ordusunun işğal altında saxladığı Azərbaycan ərazilərində hərbi təlimlər keçirməyə çalışması və Azərbaycan ordusunun Ağ-

damdakı mövqelərinə yaxınlaşmağa çalışan Ermənistan vertolyotunun vurulması kimi məsələlər diqqəti cəlb edən məqamlar olmuşdur. Başda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev olmaqla Azərbaycan rəsmiləri daim qeyd etmişlər ki, Azərbaycan öz ərazilərinin işğalı ilə heç vaxt barışmayacaqdır. Tez, ya da gec, dinc yolla, ya da hərbi yolla, amma Azərbaycan öz ərazilərini işğaldan mütləq azad edəcəkdir.

Soyuq müharibənin başa çatması mərhələsində ən çox etnik gərginliyin yaşandığı respublika Gürcüstan olmuşdur. Bu respublikanın çoxmillətli olması, muxtar subyektlərin sayı, o vaxtkı hakimiyyətinin daha radikal millətçi əhval-ruhiyyə ilə ölkəni idarə etməyə çalışması, Moskvanın digər yerlərə olduğu kimi buraya da destruktiv xarakterli müdaxiləsi Gürcüstanda etnik münaqişələrin alovlanmasına səbəb olmuşdur. Bu münaqişələrdən biri də Cənubi Osetiya münaqişəsi idi.

2002-ci ildə "Cənubi Osetiya parlamenti" prezident Eduard Kokoytinin Cənubi Osetiyanın Rusiyanın tərkibinə alınması ilə bağlı Rusiyaya müraciətini dəstəkləyən qərar qəbul etmişdir. Tərəflər arasında ikitərəfli, üçtərəfli və çoxtərəfli formatda müzakirələr Şevardnadzenin hakimiyyəti illərində davam etdirilmişdir.

Mixeil Saakaşvilinin prezidentliyindən sonra isə Cənubi Osetiya münaqişəsi ilə bağlı yeni mərhələyə qədəm qoyulmuşdur. Gürcüstan bir tərəfdən güclü ordu quraraq, digər tərəfdən də iqtisadi və sosial amillərdən istifadə edərək Cənubi Osetiyanı öz nəzarəti altına almağa çalışmışdır. Amma nə Rusiya rəhbərliyi, nə də Cənubi Osetiyadakı "de-fakto" hakimiyyət buna razı olmadıqları üçün bu iki tərəf müxtəlif provokasiyalara əl atmışdır. Buna cavab olaraq Gürcüstan 2004-ci il iyun ayının əvvəllərində regiondakı sülhməramlılarının sayını artırmışdır.

2005-ci ilin yanvarında AŞ PA-da çıxış edən Saakaşvili, Cənubi Osetiyaya geniş muxtariyyət statusu təklif etmişdir. Buna cavab olaraq Eduard Kokoyti bildirmişdir ki, Cənubi Osetiya artıq müstəqil bir dövlət olmuşdur. Bundan sonrakı mərhələdə Gürcüstan Cənubi Osetiya ilə bağlı ikitərəfli və çoxtərəfli formatda dialoqlar təşkil etməyə çalışsa da, Cənubi Osetiya tərəfi bunları əsasən boykot etmişdir.

2006-ci ilin əvvəllərində Gürcüstan ilə Cənubi Osetiya arasındakı təmas xəttində Rusiya ordusu tərəfindən həyata keçirilən "MDB sülhməramlıları"nın səlahiyyət müddətinin uzadılması məsələsi gərginliyə səbəb olmuşdur. Çünki Gürcüstan, bölgədəki sülhməramlılar öz suverenliyinə və ərazi bütövlüyünə qarşı təhlükə kimi görmüşdür. Rusiya həmin dövrdə rəsmi olaraq Gürcüstanın bir bölgəsi olan Cənubi Osetiyada yaşayan insanlara vətəndaşlıq verməyə başlamış, bu Gürcüstanın etirazlarına səbəb olmuşdur. 18 iyul 2006-cı il tarixində Gürcüstan parlamenti, "Gürcüstanın separatçı regionlarında sülhməramlı hərəkat" adlı sənəd qəbul etmişdir. Sənəd Gürcüstan hökumətinin təcili şəkildə Cənubi Osetiyadakı mövcud sülhməramlıların çıxarılması və beynəlxalq sülhməramlı güclə dəyişdirilməsi üçün zəruri addımlar atmasını nəzərdə tutmuşdur.

Abxaziya və Cənubi Osetiyanın separatçı liderləri, Rusiya rəsmiləri buna sərt reaksiya vermişdir (14).

2008-ci il avqustun ilk günlərindən başlayaraq gürcü və osetinlər arasında qarşılıqlı atəşlərin artması müharibənin ilk siqnalları olmuşdu. Avqustun 7-də Gürcüstan Prezidenti Mixail Saakaşvili atəşkəs elan etdiklərini açıqlamış, ancaq bu atəşkəs Qafqazda növbəti müharibənin başlanğıcının ilk addımı olmuşdu. Atəşkəsdən dərhal sonra osetin tərəfinin gürcü kəndlərinə bombalı hücumu (Gürcüstanın iddiası belədir) Gürcüstanı "cavab əməliyyatlarına məcbur etmiş", avqustun 8-də artıq Gürcüstan ordusu Cənubi Osetiyaya daxil olmağa başlamışdır. Gürcü ordusu Cənubi Osetiyanın paytaxtı Sxinvalini nəzarətinə almışdır. Buna cavab olaraq Rusiya Gürcüstana hücuma keçmiş və Gürcüstan ərazisini işğal etmişdir. Eyni vaxtda həm Osetiya, həm də Abxaziya cəbhəsindən Gürcüstana qarşı hücuma keçilmişdir. Beləcə, bəzilərinə görə Gürcüstan-Rusiya müharibəsi kimi xarakterizə edilən hadisələr Gürcüstan - Cənubi Osetiya - Abxaziya - Rusiya müharibəsinə çevrilmişdir. Bilindiyi kimi həmin vaxt regionda vəziyyət xeyli dramatik hal almış, humanitar fəlakət yaşanmışdır. Qonşu dövlətlər və böyük güclər mövzu ilə bağlı narahatlıqlarını ifadə etmiş, müharibənin dayanması üçün təşəbbüslər göstərmişdir. Xüsusilə, Avropa İttifaqının sədri kimi Fransa prezidenti Nikolas Sarkozinin vasitəçiliyi ilə 12 avqust 2008-ci il tarixində 6 maddəlik atəşkəs müqaviləsi imzalanmışdır. Müqavilə güc tətbiqinə son verilməsini, hərbi xarakterli hərəkətlərin dayandırılmasını, humanitar yardımlara imkan tanınmasını, Gürcüstan və Rusiya ordularının son müharibədən əvvəlki mövqelərinə geri qayıtmasını, Cənubi Osetiya və Abxaziyanın gələcək statusu mövzusunda beynəlxalq səviyyəli danışıqların aparılmasını nəzərdə tuturdu. Ancaq Rusiya hakimiyyəti həm praktikada, həm də verdiyi bəyanatlarla əks mövqe nümayiş etdirmişdir. Rusiya artıq Abxaziya və Cənubi Osetiyanın statuslarının müzakirə mövzusu olmayacağını elan etmişdir. 21 avqust 2008-ci il tarixində Abxaziya və Cənubi Osetiya "parlament"ləri, "müstəqilliklərinin" rəsmən tanınması üçün Rusiyaya müraciət etmişdir. Əvvəllər bu cür müraciətlərə cavab verməyən Rusiya bu dəfə fərqli davranmışdır. Prezident Medvedev, 26 avqust 2008-ci ildə Rusiyanın Cənubi Osetiyanı "müstəqil dövlət" kimi tanıdığını açıqlamışdır.

Daha sonra Rusiyanın da təşəbbüsləri ilə başqa bəzi dövlətlər də Cənubi Osetiyanın "müstəqilliyini" tanımışdır. Cənubi Osetiya ilə Nikaraqua arasında "diplomatik əlaqələr" 14 aprel 2010-cu il tarixində qurulmuşdur (15). 1 oktyabr 2008-ci ildə Somalinin Rusiyadakı səfiri Cənubi Osetiyanın müstəqilliyini tanıyacaqlarını açıqlamışdır. Amma daha sonra Somali rəsmiləri Gürcüstanın ərazi bütövlüyünü dəstəklədiklərini açıqlamışdır. 15 dekabr 2009-cu il tarixində Sakit okeandakı ada dövləti Nauru Cənubi Osetiyanın "müstəqilliyini" tanımışdır (8). 2011-ci ilin sentyabrında isə Tuvalunun Cənubi Osetiyanı "müstəqil dövlət" kimi tanıdığı açıqlanmışdır (1). Gürcüstan buna sərt reaksiya vermişdir. Gürcüstan ilə Tuvalu arasında diplomatik münasibətlər kəsilmişdir. Amma daha sonra Tuvalunun Cənubi Osetiyanı tanıması ilə bağlı əks proses

getmişdir. Belə ki, 31 mart 2014-cü il tarixində Tuvalunun Xarici İşlər naziri Gürcüstanın ərazi bütövlüyünü dəstəklədiklərini açıqlamışdır (10).

Növbəti illərdə Cənubi Osetiya münaqişəsinin həlli ilə bağlı səylər davam etsə də, 2008-ci ilin avqust hadisələri və daha sonra Rusiyanın başlatdığı "tanıma" prosesi bu istiqamətdəki imkanları xeyli azaltmışdır.

Artıq qeyd olunduğu kimi SSRİ-nin dağılma mərhələsində Cənubi Qafqaz regionundakı üç etnik münaqişə diqqəti xüsusilə cəlb etmişdir ki, onlar arasında Abxaziya münaqişəsi də var idi. 20-ci əsrin sonlarında SSRİ-nin dağılma prosesinə paralel olaraq imperiyanın müxtəlif yerlərində millətçilik hisslərinin alovlanması, Moskvanın yerli tələbləri başa düşə bilməməsi, yerli hakimiyyətlərin düzgün qərarlar qəbul edə bilməməsi, bəzən də səriştəsiz idarəetmə Abxaziyada etnik gərginliklərə səbəb olmuş, bu gərginliklər əvvəlcə kiçik münaqişələrə, sonra isə müharibəyə çevrilmişdir. Abxaziya münaqişəsində də üçüncü tərəflərin problemə müdaxiləsi, problemin taleyini müəyyənləşdirən əsas amillərdən biri olmuşdur.

2001-ci ilin yayında Abxaziya və Gürcüstan arasındakı cəbhə xəttində vəziyyət gərginləşmişdir. İyul ayındakı kiçik atəşkəs pozuntularından sonra 2001-ci ilin sentyabr-oktyabr aylarında münaqişə alovlanmışdır. Döyüşlər əsasən iki tərəfin də strateji əhəmiyyət verdiyi Kodor dərəsi ətrafında cərəyan etmişdir. 18 oktyabr 2001-ci il tarixində dayandırılan döyüşlər nəticəsində Abxaz separatçıları Kodor dərəsini tam nəzarətləri altına almışdır.

Problemi dinc yolla həll etməyə çalışan Gürcüstan Prezidenti Eduard Şevardnadze Gürcüstanı federal dövlətə çevirməyə və Abxaziyaya xüsusi status verməyə dair müzakirələrə hazır olduqlarını qeyd etmişdir. Lakin bu təklif Abxaziya tərəfindən qəbul edilməmişdir. Gürcüstanda baş verən iqtidar dəyişikliyindən sonra etnik münaqişələr ilə bağlı fəal siyasət aparılmağa başlanmışdır. Yeni prezident Mixeil Saakaşvili ərazi bütövlüyü uğrunda və etnik separatizmlə mübarizədə yeni metodlara müraciət edəcəyini bildirmişdir. 2004-cü ilin mayında Rusiyanın vasitəçiliyi ilə reallaşdırılan Gürcüstan-Abxaziya danışıqlarında, Gürcüstan, Abxaziyaya federasiya səviyyəsində geniş muxtariyyət statusu təklif etmiş, lakin Abxaziya buna mənfi yanaşmışdır. Bir müddət sonra aydın olmuşdur ki, Saakaşvili iqtidarı ərazi bütövlüyü ilə bağlı problemlərini həll etmək üçün yeni taktikaya müraciət etməyə hazırlaşır. Bu taktikanın əsasını Gürcüstanın problemlərini həll etmək, həyat standartlarını yüksəltmək, Gürcüstanı bir ölkə kimi Abxaziyada və Cənubi Osetiyada yaşayanlar üçün cəlbedici etmək təşkil etmişdir.

Saakaşvili hakimiyyəti bu istiqamətdə müəyyən addımlar atsa da, xüsusilə Rusiya ilə münasibətlərdə yaşanan soyuqluqlar Abxaziya və Cənubi Osetiya münaqişələrinin taleyinə də təsir etmişdir. Gürcüstandakı rus hərbi bazalarının boşaldılması prosesi Rusiyanı narazı salmışdır. Belə ki, 30 may 2005-ci il tarixində Moskvada, Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov ilə Gürcüstanın Xarici İşlər naziri Salome Zurabişvili arasında Gürcüstandakı rus hərbi bazalarının boşaldılması ilə bağlı müqavilə imzalanmışdır. Öz növbə-

sində Rusiya da Gürcüstanın Qərb ilə sıxlaşan münasibətlərinə sərt reaksiya vermişdir. 2005-ci ilin oktyabrında Rusiya Federasiyasının cənub respublikalarının parlamentlərini birləşdirən Cənubi Rusiya Parlament Assosiasiyasının üzvlüyünə Abxaziyanın da alınması ilə bağlı qərar da birbaşa Gürcüstanın ərazi bütövlüyünə qarşı yönəlmişdir (16).

Abxaziya münaqişəsinin taleyi baxımından, heç şübhəsiz, ən vacib hadisələr 2008-ci ildə cərəyan etmişdir. Əsas gərginlik isə avqust ayında baş vermişdir. Avqustun ilk günlərində Cənubi Osetiya və Rusiya tərəfi Gürcüstanı, Gürcüstan isə qarşı tərəfləri özünə qarşı kiçik hərbi əməliyyatlarla və mülki vətəndaşları öldürməklə günahlandırmışdır. Gürcüstanın Cənubi Osetiya üzərində suverenliyini bərpa etmək üçün başlatdığı hərbi əməliyyatlar ilk başda uğurla nəticələndiyi halda daha sonra Rusiyanın açıq hərbi müdaxiləsi ilə müharibənin taleyi dəyişmişdir. Hətta müharibənin bütün Qafqaza yayılma təhlükəsi də ortaya çıxmışdır.

2008-ci ilin avqust hadisələrindən sonra Abxaziya həm de-fakto müstəqilliyini, həm də Rusiya ilə münasibətlərini sürətlə inkişaf etdirməyə başlamışdır. Rusiya 26 avqust 2008-ci il tarixində Abxaziyanın "müstəqilliyini" tanımış və digər ölkələrin də Abxaziyanı tanıması üçün təşəbbüslər göstərmişdir (9). Bu təşəbbüslər nəticəsində daha üç (Abxaz tərəfinə görə isə beş) ölkə Abxaziyanın müstəqilliyini tanımışdır. 5 sentyabr 2008-ci il tarixində Nikaraquanın Abxaziyanı tanıdığı açıqlanmışdır (12). 10 sentyabr 2009-cu il tarixində Venesuela Bolivar Respublikasının Prezidenti Oqo Çaves "Abxaziya Respublikasının müstəqilliyini" tanıdıqlarını açıqlamışdır (2). 15 dekabr 2009-cu il tarixində Nauru Abxaziyanın "müstəqilliyini" tanıyan dördüncü ölkə olmuşdur (7). 2011-ci ilin mayında Vanuatu Abxaziyanı "müstəqil dövlət" kimi tanıdığı açıqlanmışdır (5). Amma 7 iyun 2011-ci il tarixində Vanuatunun BMT-dəki səfiri ölkəsinin Abxaziyanın "müstəqilliyini" tanımadığını bildirib (6). 2011-ci ilin sentyabrında isə Tuvalunun Abxaziyanı "müstəqil dövlət" kimi tanıdığı açıqlanmışdır (4). Gürcüstan buna sərt reaksiya vermişdir. Amma Tuvalunun da Abxaziyanı tanıması ilə bağlı daha sonra əks proses getmişdir. Belə ki, 31 mart 2014-cü il tarixində Tbilisiyə səfər edən Tuvalunun Xarici İşlər naziri həm Abxaziyanı tanıdıqlarına dair sənədin qüvvədən düşdüyünü açıqlamışdır (10).

Beləliklə, Abxaziya münaqişəsi Cənubi Qafqazdakı digər iki etnik münaqişə kimi hələ də həll edilmədən qalır. Digər tərəfdən münaqişə ilə bağlı beynəlxalq vəziyyət də bu "tanınma" probleminə görə mürəkkəbliyini qoruyur. Bu münaqişələrin həll olunmaması region ölkələrinin iqtisadi inkişafına mənfi təsir göstərir, onların öz potensiallarından tam istifadə etməsinin qarşısını alır.

## ƏDƏBİYYAT


1. "23 сентября 2011 Острова Тувалу признали Южную Осетию", http://lenta.ru/news/2011/09/23/tuvalu1/)
2. "Chávez Backs Moscow on Rebel gions", http://www.nytimes.com/2009/09/11/world/americas/11moscow.html?_r=1

3. “Resolution 1416 (2005) The conflict over the Nagorno-Karabakh region dealt with by the OSCE Minsk
Conference”, http://assembly.coe.int/Documents/AdoptedText/TA05/ERES1416.htm
4. “Абхазию признало государство Тувалу”, 23 сентября 2011, http://lenta.ru/news/2011/09/23/tuvalu/
5. “Независимость Абхазии признали острова Вануату, 31 мая 2011”, http://www.bbc.co.uk/russian/international/2011/05/110531_vanuatu_recognise_abkhazia.shtml).
6. “Признание Абхазии со стороны Вануату”, http://www.civil.ge/rus/article.php?id=22151)
7. “Республика Науру признала независимость Абхазии”, 15.12.2009, http://ria.ru/politics/20091215/199361378.html)
8. “Республика Науру признала независимость Южной Осетии”, 16.12.2009, http://lenta.ru/news/2009/12/16/nauru/
9. “Россия признала независимость Абхазии и Южной Осетии”,http://lenta.ru/news/2008/08/26/medvedev/)
10. “Тувалу отозвала признание Абхазии и Южной Осетии”, 31 Март 14, http://www.civil.ge/rus/article.php?id=25821/).
11. ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə 1416 (2005) saylı Qətnamə, http://www.meclis.gov.az/?/az/qarabakh_content/14
12. http://www.cancilleria.gob.ni/publicaciones/r_abjasia.pdf
13. http://www.state.gov/g/drl/rls/hrrpt/2006/78799.htm
14. Kommersant - Коммерсантъ, 20 iyul 2006, http://www.kommersant.ru/doc/691380 )
15. Южная Осетия установила дипотношения с Никарагуа, 14 апреля 2010, http://lenta.ru/news/2010/04/14/nicaragua/)
16. Абхазию приняли в Южный федеральный округ, 5 октября 2005 г., http://www.newsru.com/arch/russia/05oct2005/abhaziya.html

## ЭТНИЧЕСКИЕ КОНФЛИКТЫ XXI ВЕКА КАК УГРОЗА РЕГИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ НА ЮЖНОМ КАВКАЗЕ

**Э.М.ДЖАМИЛЛИ**

### РЕЗЮМЕ

Процесс распада СССР проходил параллельно с процессом обострения этнических конфликтов как в пределах автономий, так и на территориях, где автономии отсутствовали. Южный Кавказ являлся регионом, где такого рода конфликтов происходило много. Так, в период распада СССР на Южном Кавказе появились такие проблемы как «Армяно-Азербайджанский, Нагорно-Карабахский конфликт», «Осетинский конфликт» и «Абхазский конфликты». Все три проблемы сохраняют актуальность как для региона, так и для всего мира. В статье этнические конфликты рассматриваются как угроза региональной безопасности на Южном Кавказе, а также анализированы события, способствующие обострению противоречий между конфликтующими сторонами и шаги на пути их разрешения.

**Ключевые слова:** этнический конфликт, конфликтующие стороны, Южный Кавказ, война

**ETHNIC CONFLICTS AS A THREAT TO THE REGIONAL SECURITY IN THE SOUTH CAUCASUS IN THE 21st CENTURY**

**E.M.JAMILLI**

**SUMMARY**

The collapse of the former USSR coincided with the escalation of ethnic conflicts. South Caucasus was the richest region with ethnic conflicts. "Armenian-Azerbaijan Nagorno Karabakh conflict", "Ossetian conflict" and "Abkhazian conflict" came up during the collapse of the former USSR. All three conflicts are pressing for the region and the world. The article studies ethnic conflicts as a threat to the regional security in the South Caucasus, and analyses the causes of contradictions between the sides of the conflicts and actions taken to solve them.

**Key words:** ethnic conflict, sides of the conflict, South Caucasus, war